


# Ekoloji həmrəylikdən hər kəs məmnundur

**Azərbaycan son illərdə beynəlxalq arenada mövqeyini gücləndirərək müxtəlif sahələrdə mühüm sammitlərin təşkilatçısı kimi diqqət çəkir. Bu mötəbər tədbirlərdən biri də hazırda Bakıda keçirilən COP29 konfransıdır.**

Bu tədbir ekoloji problemlər və iqlim dəyişmələri ilə mübarizədə dünya ölkələrinin bir araya gəlməsi üçün vacib platformadır. İlk növbədə, qeyd etmək lazımdır ki, ölkəmiz coğrafi mövqeyi və təbii resursları ilə ətraf mühitin qorunması məsələlərində mühüm rol oynayır. Xüsusilə, Xəzər dənizinin və onun sahil bölgələrinin ekosistemi bu regionun ekoloji tarazlığının qorunması baxımından böyük əhəmiyyətə malikdir. Regionda enerji istehsalçısı kimi rolunu nəzərə alaraq Azərbaycanın iqlim dəyişmələri məsələlərinin həllinə müsbət töhfə verməsi, həm də qlobal enerji keçidinin təşviqini dəstəkləməsi olduqca vacibdir.

**(davamı 10-cu səhifədə)**







# Ekoloji həmrəylikdən hər kəs məmnundur

**(əvvəli 1-ci səhifədə)**

COP29-un Azərbaycanda keçirilməsi yalnız ölkəmizin beynəlxalq imicini yüksəltmək deyil, həm də ekoloji məsələlərə verdiyi önəmi nümayiş etdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Xarici qonaqlar da Azərbaycanda keçirilən COP29 tədbirindən məmnunluqlarını bildirirlər. Onlar tədbirin yüksək səviyyədə təşkil edildiyini, Bakıda dünya miqyasında mühüm məsələlərin müzakirə olunduğu bir platforma yaradıldığını vurğulayırlar. Elə həmsöhbət olduğumuz qonaqlar da tədbirin peşəkar yanaşma ilə aparıldığını, iştirakçıların fikirlərini rahat şəkildə paylaşa bildiklərini dedilər.



**Ümumdünya Səhiyyə Təşkilatının müşahidəçisi Kira Fortune** bildirdi ki, Azərbaycan bu mötəbər tədbirə cəmi 10 ay ərzində hazırlaşmasına baxmayaraq, tədbirlərlə bağlı heç bir mənfi hal müşahidə edilmir: "Bakının COP29-a ev sahibliyi edəcəyi bilinəndə konfransa 1 ildən az müddət qalmışdı. Belə genişmiqyaslı sammit üçün bu vaxt çox azdır. Amma Azərbaycan COP tarixində əhəmiyyətli uğura imza atdı. Sistemli və planlı iş quruldu ki, bunun da nəticəsində indi biz tədbirin gedişatında heç bir ciddi problemlə üzləşmirik. Hər gün onlarla tədbir keçirilir, amma heç bir toqquşma baş vermir. Çünki konfransın keçirildiyi ərazidə kifayət qədər iclas otaqları var. Ərazi geniş olsa da, yerləri tapmaqda çətinlik çəkmirik. Burada hər bir qonağa gülərüzlə kömək edən çoxlu könüllü şəxslər var. Hər gün qarşılaşdığım gənclərin enerjisi məni də ruhlandırır".



**Braziliya Neft və Qaz İnstitutunun Prezidenti Roberto Ardenghy** COP29 çərçivəsində aparılan maraqlı müzakirələrə diqqət çəkib: "Bu tədbirdə mən kifayət qədər yeni məlumat öyrəndim. Ənənəvi enerji resurslarının iqlim dəyişmələrinə mənfi təsiri barədə hazırlanan çıxışlara, slaydlara baxdım. Həqiqətən də, dünya iqlim dəyişmələrinə qarşı mübarizədə uğurlu olmasa, bizi yaxşı son gözləmir. Hər kəs bunun fərqində olmalı və birgə çalışmalıdır. Azərbaycan qlobal əməkdaşlıq üçün unikal platforma təqdim edir. İqlim sammitinin təşkilatçılığı çox uğurludur. Mən də, birlikdə gəldiyim xarici dostlarım da heç bir problem yaşamamışıq. Hər şey qaydasındadır, normalara uyğundur".



**Humanitar Fəaliyyət üçün Könüllü Komanda Fondunun nümayəndəsi Mahmud Fevzi** isə Bakıda keçirilən iqlim sammiti zamanı əldə olunan uğurları xüsusilə vurğuladı: "Azərbaycanda davam edən konfransda elə ilk gündən razılaşma əldə olundu. Paris Sazişinin 6-cı bəndinin icrası üzrə tərəflər ortaq məxrəcə gələ bildilər. Bu da Bakı COP-nun effektivliyini göstərir. Sammit çərçivəsində təşkil olunan hər bir müzakirə əhəmiyyətlidir, seçilən 7 tematik gün də iqlim dəyişmələri ilə bağlı ən kritik məqamları özündə əks etdirir. Həm konfransda iştirak edən qonaqların sayı, həm tədbirin yüksək səviyyədə təşkil olunması, həm də sammitin gedişatında bəyannamələrin imzalanması, razılaşmaların əldə olunması uğur göstəricisidir. Azərbaycan bu tədbirə ən yüksək səviyyədə ev sahibliyi edir".



**Montfort Eurasia PR agentliyinin nümayəndəsi Alena Georgobiani** də tədbirin keçirildiyi hər iki zonada iştirak etdiyini və ümumi təəssüratlarının müsbət olduğunu bölüşüb: "Həm mavi, həm də yaşıl zonadakı iclaslara qatılmışam. Yaşıl zona bir qədər sakitdir, burada daha çox media nümayəndələrini, özəl şirkətlərin rəhbərlərini görmək olar. Yaşıl zonadakı pavilyonlar da, xüsusilə vurğulanmalıdır. Mavi zonada isə daha rəsmi toplantılar keçirilir. Burada çox böyük komanda işləyir. Həm könüllülər, həm Azərbaycan nümayəndələri, həm də yerli media işçiləri qonaqlara bütün aspektlərdə kömək edirlər. Özüm də mətbuatla işləyən biri kimi deyərəm ki, Azərbaycanda xeyli yaxşı jurnalist var, onlar tədbirləri hərtərəfli işıqlandırırlar".

Ölkəmizə gələn qonaqlara kömək edən könüllülər işlərinin həddindən artıq çox olduğunu, bununla belə, yeni bilik və bacarıqlara yiyələndiklərini vurğulayırlar. Gənc könüllülər yeni xarici dostlar qazandıqlarını diqqətə çatdırırlar. Onlar üzərilərinə düşən məsuliyyətin fərqində olduqlarını, bu səbəbdən də maksimum diqqətlə hərəkət etdiklərini bildirirlər.

Təkcə Bakı Olimpiya Stadionun hüdudlarında deyil, şəhərin digər ərazilərində də COP29-dan məmnunluq sezilir. Yerli sakinlər Azərbaycanın adının belə mötəbər tədbirlə hallanmasından qürur duyduqlarını deyirlər. **48 yaşlı Rəhilə Qasımova** bildirir ki, sammitdən əvvəl yolların bağlı olacağı ilə əlaqədar narahatlıq yaransa da, bunlar həqiqəti əks etdirməyib: "Sammitdən əvvəl deyirdilər ki, Bakıda hərəkət məhdudlaşdırılacaq, gediş-gəliş çətinləşəcək. Amma əksinə oldu, indi daha rahat hərəkət etmək mümkündür. Tıxac azalıb, ictimai nəqliyyatın hərəkətində fasilələr yaranmır. Ümumiyyətlə, Bakıda həyat öz axarında davam edir. Azərbaycanın adı yüksək tədbirə ev sahibliyi etməklə hallanır, bu bizim üçün qürurvericidir. Kimsə ölkəmizdən yaxşı danışanda biz də fəxr edirik. Təki elə dövlətimiz hər zaman belə beynəlxalq layihələrlə ön plana çıxsın, bütün dünya ölkəmizin uğurlarından danışsın".

Görünən odur ki, paytaxt Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının işindən həm yerli sakinlər, həm də xarici qonaqlar məmnundurlar. Çünki Azərbaycan bu konfransa ev sahibliyi etməklə həm beynəlxalq aləm üçün uğurlu platforma ortaya qoydu, həm də yerli icmaların iqlim dəyişmələri mövzusunda məlumatlılığını artırdı və həmrəylik ruhunu təbliğ etdi. Bundan sonra da belə tədbirlərin keçirilməsi ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə imkanlar yaradacaq.

Jalə QASIMZADƏ,
"Respublika".